*S.Mustafayeva. Müsəlman şərqində ilk qızlar məktəbi, yaxud maarif uğrunda mücadilə (arxiv materialları əsasında) // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.244-249.*

UOT: 930.25

**Səadət Mustafayeva**
*Baş mütəxəssis*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi.26.*
*e-mail: mustafayeva.seadet.sm@gmail.com*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK QIZLAR MƏKTƏBİ, YAXUD MAARİF UĞRUNDA MÜCADİLƏ (ARXİV MATERİALLARI ƏSASINDA)

*XIX əsrin sonu-XX əsrin əvvəllərində yaşamış məşhur sahibkar, mesenat H.Z.Tağıyev neftdən əldə etdiyi gəlirlə xeyriyyə işləri həyata keçirmiş, maarif uğrunda mübarizə aparmışdır. Savadsızlığın acısını dadmış H.Z.Tağıyev vətən övladlarının, kasıb, yetim oğlan və qızlarımızın təhsil almasına böyük qayğı göstərmişdir. Onun üçün təhsil, xüsusilə qızların savadlanması gələcək nəslin müasir dünya ilə ayaqlaşmasının yeganə yolu idi. H.Z.Tağıyevin xeyriyyə işləri sırasında müsəlman Şərqində ilk qızlar məktəbinin yaradılmasını də qeyd etmək lazımdır. Məqalədə qızlar məktəbinin yaradılması, müəllimlər haqqında, şagirdlərə göstərilən qayğıdan, qızlar məktəbindən sonra binanın sonrakı taleyindən bəhs edilir.*

***Açar sözlər:*** *Hacı Zeynalabdin Tağıyev, qızlar məktəbi, rus-müsəlman, Aleksandrinski, Bakı*

## Giriş

*Tarix səhifələrinə öz xeyirxah əməlləri ilə adını əbədi yazan Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin təsis edilməsi uğrunda mücadiləsi təkcə bir nəfər xeyriyyəçinin xeyirxah fəaliyyətinin göstəricisi deyil, eyni zamanda Azərbaycanda müsəlman əhalinin elmə, maarifə verdiyi yüksək qiymətin göstəricisidir. Onun təsisçisi olduğu bu məktəb müsəman Şərqində ilk dəfə ziyalı qadın yetişdirməklə bütün müsəlman dünyasında qadınarın savadlı olmasına münasibəti dəyişmişdi.*

Tarixi sənədlərə görə, Azərbaycanlı milyonçu, mesenat, Rusiya İmperiyasının Həqiqi Dövlət Müşaviri, II və III dərəcəli Müqəddəs Stanislav ordeni laureatı Hacı Zeynalabdin Tağıyev 1838-ci ildə Bakıda kasıb başmaqçı ailəsində anadan olmuşdur.

Zeynalabdin Tağıyevin tərcümeyi-halını yazan alimlərin qeydlərindən bəlli olur ki, o, 10 yaşından işləməyə başlayıb. Əvvəlcə bənna şagirdi olmuş, 15 yaşından bənna, daha sonra isə podratçı işləmişdir. O vaxtlar Bakıda neft bumu hökm sürürdü. Zeynalabdin iki şəriki ilə birlikdə Bibiheybətdə torpaq icarəyə götürmüş, burada qazılan quyulardan neft çıxmamışdır. Ümidsiz olan şərikləri öz paylarını Zeynalabdinə satırlar. O, qibtəediləcək inadkarlıqla qazma işlərinə davam edir. Nəhayət, quyu fontan vurur. Kasıb başmaqçı Tağının oğlu, palçıq daşıyan Zeynalabdin bir anda milyonçu Tağıyevə çevrilir [10, səh. 121].

H.Z.Tağıyev neftdən əldə etdiyi gəlirlə xeyriyyə işləri həyata keçirirdi. Onun təşəbbüsü ilə Bakıda ilk xeyriyyə cəmiyyəti isə 1905-ci ildə yaranmış Müsəlman Xeyriyyə Cəmiyyəti olmuşdur. Bundan əlavə, "Nəşr və maarif", "Nicat" cəmiyyətlərinin yaranmasında da H.Z.Tağıyevin yaxından köməkliyi olmuşdur. Onun şəhər yollarının, dənizkənarı bulvarın genişləndirilməsində, parkların salınmasında, dəmir yollarının çəkilməsində müstəsna rolu olmuşdur. Həbsxana, məscid, məktəb və teatr binalarını tikdirib, Bakı-Şollar su kəmərini çəkdirərək şəhəri içməli su ilə təmin etmişdir [10, səh. 121]. Savadsızlığın acısını dadmış H.Z.Tağıyev vətən övladlarının, kasıb, yetim oğlan və qızlarımızın təhsil almasına böyük qayğı göstərmişdir. [15, səh.5] Onun üçün təhsil, xüsusilə qızların savadlanması gələcək nəslin müasir dünya ilə ayaqlaşmasının yeganə yolu idi.

Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin xeyriyyə işləri sırasında müsəlman Şərqində ilk qızlar məktəbinin yaradılmasını də qeyd etmək lazımdır. Məktəbin tikintisi 1896-cı ildə başlamış, 1901-ci ildə isə başa çatdırılmışdır. Məktəb binasının memarı, 1893-1904-cü illərdə Bakı şəhərinin baş memarı olan İosif Qoslavski olmuşdur. Tikintiyə isə H.Z.Tağıyev şəxsən özü nəzarət etmişdir. O, binanın dam örtüyünü elə hazırlatdırmışdır ki, gələcəkdə əlavə mərtəbənin də tikilməsi mümkün olsun. Mənbələr göstərir ki, Hacı məktəbin tikintisinə əvvəl 25 min rubl ayırsa da, sonralar xərclər artmışdır. Bütün mebel, maddi-texniki təchizatla birgə məktəbin ümumi xərci 183533 rubla qədər qalxmışdı. [9, səh.136]

Məlumdur ki, Bakıda qızlar məktəbi açmaq istəyən H.Z.Tağıyev rus çarı III Aleksandra müraciət etsə də, mənfi cavab almışdır. II Nikolayın tac qoyma mərasimində fürsəti əldən verməyən Tağıyev çarın həyat yoldaşı Aleksandra Fyodorovnaya bahalı hədiyyələr bağışlayır və Bakıda onun adına qız məktəbinin açılmasına razılıq verməsini xahiş edir. H.Z.Tağıyevin Bakı şəhər idarəsinə 1896-cı il 29 aprel tarixli ərizəsində bildirilirdi: "Mən, İmperator Həzrətlərinə dərin sədaqət hisslərindən çıxış edərək, onların müqəddəs tacqoyma mərasimini xeyriyyə işi – Bakıda öz vəsaitlərim hesabına nəzdində 20 nəfərlik pansionu olan rus-müsəlman qız məktəbinin təsisi ilə qeyd etmək qərarına gəldim. Həmin məqsədlə mən bütün xidmətlərlə və avadanlıqla təchiz olunan məktəb binasının tikintisinə iyirmi beş min (25000) rubl və ayrıca toxunulmaz kapital kimi yüz iyirmi beş min (125000) rubl ianə ayırıram ki, sonuncu məbləğdən gələn faizlər məktəblə pansionun saxlanılmasını təmin etməlidir...

Adı çəkilən məktəbin hansı məqsədlər üçün və hansı əsaslarla təsis olunmasını Cənubi Qafqaz Tədris Dairəsinin hamisinə aprelin 24-də yazdığım məktubda izah etmişəm (surəti əlavə olunur). Dairə müfəttişi cənab Zavadskinin 25 aprel tarixli 199 N-li məktubundan göründüyü kimi, Zati-aliləri öz razılığını bildirmişdir. Hazırda yalnız bir məsələ – mənim tərəfimdən məbləğ ödənildikdən sonra məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsinə ali icazəni almaq qalır...

Məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsinə icazənin alınmasına mütləq İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasiminə qədər baş verməli olduğunu nəzərə alaraq, mən Bakı Şəhər İdarəsinə yüz əlli min (150000) rubl məbləğində faizli dövlət kağızları köçürürəm ki, (reyestr əlavə olunur), yuxarıda deyildiyi kimi, onlardan 25000 rubl xidmətlərlə və avadanlıqla tam təchiz olunmuş məktəb binasının inşası üçün, digər 125000 rubl isə toxunulmaz kapital kimi (bu məbləğdən əldə olunmuş faizlər məktəblə pansionun saxlanılmasını təmin etməlidir) nəzərdə tutulur. Həmin kapitalı qəbul edib mənə bu barədə qəbz vermənizi, eləcə də reyestrin bir nüsxəsində faiz kağızlarının xüsusi qəbzlə qəbul olunduğu barədə qeyd olunmasını xahiş edirəm..."* [7]

Elə həmin gün, yəni 29 aprel 1896-cı il tarixində Bakı şəhər idarəsi H.Z.Tağıyevin ərizəsinə baxaraq qız məktəbinin təminatı üçün ayrılan pullar saxlanılması üçün Dövlət Bankının şöbəsinə köçürülmüşdür.

* Arxiv sənədlərinə edilən istinadlar Fərhad Cabbarovun "H.Z.A.Tağıyevin qız məktəbinin tarixindən" adlı kitabındandır. (Bax: 11)

Bakı rus-müsəlman qız məktəbinin nizamnaməsində müsəlman qızlarının məktəbə 7 yaşından yuxarı qəbul olunması, məktəbdə Hamilər Şurasının fəaliyyət göstərməsindən bəhs edilmişdir.

“Kaspi” qəzetinin 1901-ci il 4 may tarixində dərc edilən nəşrində rus-müsəlman qız məktəbinin 1901-ci ilin sentyabrında açılacağı qeyd edilirdi. Həmçinin elan olunurdu ki, Hamilər Şurasının qərarına əsasən 20 nəfər pulsuz təhsil alacaq pansioner qızlardan əlavə birinci ildə yaşı 8-dən yuxarı, daha 30 nəfər isə təhsil haqqı 100 rubl olmaq şərti ilə öz hesabına oxuyan müsəlman şagird qəbul oluna bilər.

“Kaspi” qəzetində 1901-ci il 24 iyun tarixində dərc edilən məlumatda bildirilirdi ki, Bakı rus-müsəlman qız məktəbinin Hamilər Şurası özünün 22 aprel tarixində keçirilən iclasında Şuranın sədri H.Z.Tağıyevə məktəbin müdirəsi, rus və tatar dilləri, şəriət müəllimələri vəzifəsini tutmaq üçün namizədləri seçməyi həvalə etmişdi [11, səh.52].

H.Z.Tağıyevin təqdimatında həmin vəzifələrə aşağıdakı şəxslər tövsiyyə olunurdu: rus-müsəlman qız məktəbinin müdirəsi vəzifəsinə Hənifə xanım Məlikova – Tiflisdəki Müqəddəs Nina tədris müəssisəsinin məzunu, müdirənin köməkçisi və müəllimə vəzifəsinə – Məryəm xanım Sulkeviç, şəriət və tatar dili müəlliməsi vəzifəsinə – Əsmət xanım Məmməd Əmin Əfəndi qızı və s. [13]

Nəhayət, 1901-ci il oktyabrın 7-də H.Z.Tağıyevin vəsaitinə təsis edilən İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin təntənəli açılış mərasimi oldu. Açılış mərasiminə çoxlu sayda qonaq iştirak etmişdir. Onların sırasında qubernator, həqiqi mülki müşavir P.A.Lileyev, general-adyutant, knyaz İ.Q.Amilaxvari, general-leytenant A.V.Ərəblinski, kontr-admiral V.R.Fon Berq, Xəzinə palatasının rəisi A.V.Kostenski, Dairə məhkəməsinin sədri K.P.Kolbasin, sədrin müavini P.F.Sanbayev, məhkəmə prokuroru M.E.Şults, balıq vətəgələrinin rəisi A.T.Marşev, gömrük dairəsinin rəisi A.A.Arsenyev, jandarma polkovniki N.V.Poroşin, İran konsulu Fahi – Mülk Mehdi xan, Bakı polimeysteri P.Q.Oxitsinski [14] və başqaları olmuşdur.

Açılış mərasimində qeyd olunmuşdur ki, 1898-ci il mayın 16-da məktəbin nizamnaməsi təsdiq edilib və həmin vaxtdan etibarən İmperatriçə Aleksandra Fyodorovna adının verilməsi və “Aleksandriski” adlandırılmasına icazə alınıb.

Məktəbin açılış ilində 50 nəfər şagird qəbulu nəzərdə tutulsa da, daxil olmaq istəyənlərin sayı çox olduğundan əlavə 8 nəfər də qəbul edilmişdi. Buraya bütün Cənubi Qafqazdan, Tatarıstandan 8-11 yaşlı müsəlman qızlar qəbul olunmuşdu. Daha çox qəbul isə Şuşa və Tiflis şəhərlərindən idi. 35 nəfər isə pulsuz təhsil alırdı. Şagirdlər arasında H.Z.Tağıyevin qızı Sürəyya xanım da var idi. Pansion qızları üçün vahid geyim forması müəyyənləşdirilmişdi. Forma Dağıstan qadınlarının paltarı (papaqla) qəbul olunmuşdu. Qızlar başlarını tül şərflə örtürdü. Həmin kostyumu müəllimlər də geyinirdi.

Rus-müsəlman qız məktəbinin direktoru vəzifəsinə Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova təsdiqləndi. (1901-1904-cü illərdə). Hənifə xanım məktəbə rəhbərlik etməklə bərabər rus dilini də tədris edirdi. Müəllimlərdən Gülbahar Axrıyeva, Məryəm Gimbitskaya, Şəhrəbanu Şabanova, Mina Məmmədzadə, Adilə Şahtaxtinskaya, Nabat Nərimanova, Gövhər Qazıyeva, Məryəm xanım Sulkeviç, Səkinə xanım Axundova, İqlimə Heydərovanın da adlarını çəkmək olar.

Məktəbin təlim-tərbiyəçi heyətinə eyni zamanda müəllimlik edən və illik maaşı 700 rubla bərabər məktəb müdiri, illik maaşları 500 rubl olan Azərbaycan və rus dilləri, eləcə də din dərsi keçən müəllimlər, 300 rubl maaş alan tikiş dərsi və ev işi müəllimi, eləcə də aşpaz, xidmətçi, paltaryuyan və dalandardan ibarət 8 nəfər daxil idi [9, səh.143].

Məktəbdə şagirdlər üçün hər şərait yaradılmışdı. Uşaqlara böyük qayğı göstərilirdi. Şagirdlərə dini ibadətlərini yerinə yetirmək üçün namaz otağı, dərzixana, təmizlik otağı, paltar yuyulub ütülənən otaq, mətbəx, yemək otağı fəaliyyət göstərmişdir. Onlara şəriət, riyaziyyat, əl işi, evdarlıq, musiqi, ana dili, rus dili kimi dərslər tədris edilirdi.

İlk məzunlar 1905-ci ildə buraxıldı. Məktəbin məzunlarından biri Dostu Səfərova öz xatirələrində yazırdı: "Bizi çox yaxşı yedizdirirdilər: gündə dörd dəfə. Nahar üç xörəkdən ibarət idi. Menyu siniflər üzrə şagirdlərin özləri tərəfindən tərtib olunurdu. Payızda və qışda zəif qızlara onların sağlamlıqlarını möhkəmləndirən balıq yağı verilirdi" [2].

Qız məktəbinin digər məzunu Gövhər Usubovanın xatirələrindən öyrənirik (1956-cı il): "...Atamı və anamı erkən yaşlarımda itirmişəm. Yeddi yaşımadək dayımın himayəsində olmuşam, sonra isə o, məni pulsuz Hacı Zeynalabdin Tağıyevin məktəbinə yazdırdı. Beləliklə, mən Hacının vəsaiti hesabına oxuyurdum. Mənim kimi pulsuz oxuyan qızların sayı çox idi. Mən yaşım az olsa da, rəfiqələrim öz ailə vəziyyətləri haqqında danışırdılar və onların sözlərindən aydın olurdu ki, məktəbə ən kasıb ailələrdən olan uşaqlar qəbul edilirdi" [1].

Gövhər xanımın xatirələrindən məlumumuz olur ki, sovet dövründə bina Azərbaycan SSR-nin Ali Sovetinin binası olub. Belə ki, o qeyd edirdi: "Məktəbin binasında hal-hazırda Azərbaycan SSR-in Ali Soveti yerləşir" [1].

Gövhər xanım həmçinin qeyd edirdi ki, şagirdlərin iki forması olub – biri gündəlik, digəri təntənəli mərasimlər üçün nəzərdə tutulub.

Gövhər xanımın xatirələrindən H.Z. Tağıyevin necə qayğıkeş olduğunun da şahidi oluruq: "Məktəbimizin yaşda böyük qızları Hacının evində qonaq olur, kiçik yaşlı qızlara isə Sona xanım müxtəlif tort və şirniyyatlar göndərirdi. Uşaqları əyləndirmək üçün hər cümə günü bizim üçün konsert təşkil olunurdu. Məktəbimizin gözəl səhnəsi var idi... Bir dəfə mən balaca olmağıma baxmayaraq, "Bir əmma" şeirini ifa etdim. Hacı məni səhnədən qucağına aldı, qucaqladı və başımı sığalladı. Təhsil aldığım dövrdə məktəb mənim üçün tərbiyə aldığım və çox şey öyrəndiyim ana qucağı kimi idi" [1].

H.Z.Tağıyev məktəbi seminariyaya çevirmək niyyətində idi. 5 fevral 1913-cü ildə H.Z.Tağıyevin A.S.Txorjevskiyə yazdığı müraciətdən məlum olur ki, məktəbdə keçilən fənlərin proqramını genişləndirmək üçün rus-müsəlman qız məktəbinin nəzdində "Aleksandrinski" kurslarının açılması təklif olunurdu. Pedaqoji kurs ikiillik tədris planını özündə cəmləşdirirdi. Bakı Aleksandrinski məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kurslarında şəriət, rus dili və onun metodikası, riyaziyyat və onun metodikası, tatar dili və onun metodikası, pedaqogika və didaktika, təbiətşünaslıq və fizika, tarix, coğrafiya, əl işi, evdarlıq kimi fənlər tədris edilirdi.

Bakı Aleksandrinski rus-müəlman qız məktəbinin nəzdində ikillik müsəlman qadın pedaqoji kurslarının Nizamnaməsində qeyd edilir:

"Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kursları Bakı şəhərində, Rusiyada mövcud olan ikiillik tipində və nümunəsində, tatar dili mütləq tədris edilməklə yaradılır.

Bakı Aleksandrinski məktəbi nəzdində ikiillik qadın kursları müsəlman qızları ibtidai məktəb müəllimələri qismində hazırlamaq məqsədi ilə həqiqi mülki müşavir Hacı Zeynalabdin Tağıyev tərəfindən açılır.

Dinləyicilərin tərkibi hər kursda orta hesabla 20 nəfər qız olmaqla, cəmi 40 pansionerdən ibarətdir..." [4]

I Dünya müharibəsi (1914-1918) illərində qızlar məktəbini ərzaqla təmin etmək çətinləşirdi. Bunu biz pansionun bağlanmağı və yalnız daimi qalmayan şagirdlərin qəbulu ilə bağlı məktəbin Hamilər Şurasının 2 may 1916-cı il tarixində verdiyi bildirişdən də görürük. Bildirişdə qeyd olunurdu: "Hamıya məlumdur ki, Bakı şəhərində ərzaq məhsullarına kəskin ehtiyac duyulur və onların gətirilməsi xeyli çətinləşib. Digər tərəfdən, kiçikyaşlı uşaqların qidalanması keyfiyyətli və təzə məhsulların gətirilməsini tələb edir. Əlbəttə, belə bir şəraitdə pansionun saxlanılması çətinləşir, çünki bütün səylərə baxmayaraq, uşaqlar üçün təzə ərzaq tapmaq qeyri-mümkündür.

Yuxarıda deyilənləri nəzərə alaraq, Hamilər Şurası 1917-ci tədris ilinin sentyabrından pansionu bağlamağı və yalnız daimi qalmayan şagirdləri qəbul etməyi məqsədəuyğun saymış, bu barədə valideynləri məlumatlandırmağı özünün mənəvi borcu bilmişdi" [6].

1918-ci ilin aprelin 25-də Bakıda "Bakı Xalq Komissarları Soveti" təşkil olundu və hakimiyyət daşnak-bolşevik hökümətinin əlinə keçdi. Bununla da H.Z.Tağıyevin qızlar məktəbi fəaliyyətini dayandırmalı oldu. Lakin 1918-ci il senytabrın 15-də Nuru paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun köməkliyi ilə Bakı işğalçılardan azad olundu. 1918-ci il 28 mayda yaranmış Müsəlman Şərqinin ilk Demokratik Dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakıya köçürüldü. Böyük mesenat H.Z.Tağıyevin milləti üçün açdığı işıq yolunu Azərbaycan Xalq Cümhuriyyəti davam etdirdi. H.Z.Tağıyevin qızlar məktəbinin binası AXC-nin parlamenti üçün mənzil oldu. Bu müsəlman dünyasında ilk qərbyönlü parlament idi.

Parlament 1918-ci il dekabrın 7-də böyük təntənə ilə açıldı. 1920-ci ildə Sovet Rusiyasının Azərbaycanı işğal etməsinə kimi fəaliyyətini davam etdirə bilmişdir. Bu bina uzun illər Azərbaycan təhsilinə, maarif işinə və elminin inkişafına xidmət edib. XX əsrin 20-80-ci illərində ayrı-ayrı vaxtlarda xalq arasında Tağıyevin Qızlar məktəbi kimi tanınan binada "Darül müəllimin" adlanan Bakı Müəllimlər Seminariyası, Azərbaycan Dövlət Universitetinin bəzi fakültələri də yerləşib. Daha sonra binada Azərbaycan SSR Ali Soveti fəaliyyət göstərmişdir. Ali Sovet yeni binaya köçərkən bir neçə təşkilat bu binaya köçməyə səy göstərmişdir. Lakin ümummilli liderimiz Heydər Əliyevin səyi nəticəsində bina Respublika Əlyazmalar Fonduna verilir. 1986-cı ildə Respublika Əlyazmalar Fondunun bazası əsasında Əlyazmalar İnstututu yaradılır. Bugün də H.Z.Tağıyevin qızlar məktəbinin binasında əlyazmalarımızın, yazılı abidələrimizin qorunub saxlanıldığı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu fəaliyyət göstərməkdədir.

**Nəticə**

*Bir ölkənin inkişafı onun vətəndaşlarının aldığı yüksək təhsildən çox asılıdır. Təhsilimizin inkişafında xeyriyyəçi ziyalılarımızın böyük rolu olmuşdur. Məşhur sahibkar, mesenat H.Z.Tağıyev vətənimizin övladlarının xüsusilə qızlarının təhsil almasını hər zaman düşünmüşdür. Onun təşəbbüsü ilə yaradılan qızlar məktəbi bu baxımdan böyük əhəmiyyət kəsb edir. Arxiv materialları əsasında qızlar məktəbi ilə bağlı əldə etdiyimiz məlumatları faktlar əsasında burada göstərməyə çalışmışıq. Ümidvaram ki, qeyd etdiyimiz məlumatlar qızlar məktəbinin tarixinin gələcəkdə daha geniş şəkildə araşdırılmasında faydalı olacaqdır.*

**Ədəbiyyat siyahısı:**

1. ARDƏİA: f. 675, siy. 2, s. v. 98, vv. 9-11.
2. ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 21-25.
3. ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 37.
4. ARDTA: f. 309, siy. 1, s. v. 938, vv. 38-41.
5. ARDTA: f. 309, siy. 1, s. v. 31, vv. 63-65.
6. ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 92
7. ARDTA: f. 389, siy. 6, s. v. 62, vv. 43-45.
8. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı 2004. 440 səh.
9. "Hacı Zeynalabdin Tağıyev"Azərbaycan Milli Tarix Muzeyi. 241 səh.
10. Azərbaycan Sovet Ensiklopediyası. IX. Bakı. 1986.
11. Fərhad Cabbarov. H.Z.Tağıyevin qız məktəbinin tarixindən, Bakı: Ziya, 2011, 392 səh.
12. "Kaspi" qəzeti. 4 may 1901-ci il.
13. "Kaspi" qəzeti. 24 iyun 1901-ci il.

14. "Kaspi" qəzeti. 9 oktyabr 1901-ci il.
15. Hacı Zeynalabdin Tağıyev, (Tərtib edənlər: Əkrəm Bağırov, Paşa Əlioğlu, Əbülfəz Haşimoğlu) Bakı, Azərbaycan, 1993. 144 səh.
16. http://www.anl.az/down/meqale/kaspi_az/2010/oktyabr/138345.htm
17. http://manuscript.az/index.php?do=static&page=tarix

**Саадат Мустафаева**

**Первая женская школа на мусульманском Востоке, или борьба за образование (по материалам архива)**

Известный бизнесмен живущий в конце XIX - в начале XX веков, меценат Г.З.Тагиев получив доход от нефти занимался благотворительностью и боролся за образование. Г.З.Тагиев, испытавший в себе тяжесть безграмотности, очень заботился об образовании детей своей родины, бедных, осиротевшихся мальчиков и девочек. Для него образование, особенно образование девочек, было единственным способом для будущего поколения идти в ногу с современным миром. Среди благотворительных работ Г.З.Тагиева нужно также отметить о создании первой женской школы на мусульманском Востоке. В статье рассказывается о создании женской школы, об учителях, об уходе за ученицами, о дальнейшей судьбе здании после того как оно стало женской школой.

***Ключевые слова:*** *Гаджи Зейналабдин Тагиев, женская школа, русско-мусульманская, Александринский, Баку*

**Saadet Mustaphayeva**

**Female School in the muslim east,or fight for education (based on archive materials)**

Well-known entrepreneur, philanthropist G.Z. Taghiev, was a philanthropist, struggled with education for oil revenues who lived in the late 19th and early 20th centuries. Taghiyev knew what illiteracy was, and took care of education of the children of his homeland, the poor, orphans and girls. For him education, especially the education of girls, was the only way for a future generation to keep up with the modern world. It is worth noting the creation of the first Russian-Muslim Female School in the Muslim East among the charitable works of G.Z. Tagiyev. The article tells about the creation of a female school, about teachers, about caring for students, about the future building after school for girls.

***Key words:*** *Haji Zeynalabdin Taghiyev, female school, Russian-Muslim, Aleksandrinsky, Baku*

Redaksiyaya daxil olma tarixi: 25.11.2019
Çapa qəbul olunma tarixi: 10.12.2019

Tarix üzrə elmlər doktoru
**Tahirə Həsənzadə** tərəfindən çapa tövsiyə olunmuşdur.